**M U S İ Q İ   S Ə N Ə T İ**

**UOT 782/785**

**İmran Şıxəliyev**
**AMEA-nın Memarlıq və İncəsənət İnstitunun doktorantı**
**AZ 1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**E-mail:**imranshikhaliyev@gmail.com

# "AZƏRBAYCAN MƏQAMLARI ARASINDA QOHUMLUQ MÜNASİBƏTLƏRİ" SİLSİLƏSİNDƏN.

## ŞÜŞTƏR MƏQAMI.

Azərbaycan məqamlarının qohumluq münasibətlərinin ümumi xüsusiyyətləri haqqında "Konservatoriya" jurnalı № 1(43), Bakı-2019, səh. 4-9-da geniş məlumat verilmişdir. O yazının ardı olaraq azərbaycan xalq musiqisinin əsasını təşkil edən hər bir məqam ayrı ayrılıqda təhlil olunacaq və onun digər məqamlarla əlaqələri və qohumluq münasibətləri araşdırılacaq. Bu məqaləmiz şüştər məqamı haqqında olacaq.

"Şüştər" Azərbaycanda geniş yayılmış muğam dəstgahlardan biridir. İranın cənubunda, Küveytlə sərhəddə, İran körfəzində Şüştər adında kiçik bir şəhər yerləşir. Belə bir ehtimal var ki, şəhərin adı Şüstər, Şüst, Şeşdər, Şeştər və s. olmuşdur. Bəzi fərziyyələrə görə, bir çox muğam adları kimi, "Şüştər" muğamının adı da bu şəhərin adı ilə bağlıdır. Ü.Hacıbəylinin təfsirinə görə bu muğam bədii-ruhi təsir cəhətdən dinləyicidə dərin kədər hissi yaradır, insan xəyala dalır, düşünür, hisslərə qapılır. "Şüştər"in musiqi xarakteristikasına eyni zamanda dramatizm də xasdır.

Şüştər adına həm bizim muğamlar, həm də Azərbaycan xalq musiqisinin əsasını təşkil edən məqamlar sırasında rast gəlmək olar. "Şüştər" muğamının özünəməxsus xüsusiyyətlərindən biri də odur ki, bu muğam əsas şöbələri ilə birlikdə "Hümayun" muğamında ifa olunur. Mövzumuzdan kənar olduğu üçün bunun səbəbi araşdırılmayacaq. Yalnız onu demək vacibdir ki, bu ümumi şöbələr iki muğamın bir çox xüsusiyyətlərini ortaq edir. Məhz buna görə M.C.İsmayılov bu iki muğamın məqam əsasını da eyniləşdirmişdir. "Şüştər" muğamını təşkil edən şöbələrin sayı çox olmadığına və bütün şöbələrin yalnız iki məqama əsaslandığına baxmayaraq, demək olar ki, bütün məqamlara inteqrasiya olunur. Tərtib olunmuş cədvəldə şüştər məqamından bütün mümkün olan modulyasiyalar göstərilmişdir:

| İlkin muğam | sıra № | Son muğam | Vasitəçi muğam şöbəsi | Modulyasiya dərəcəsi |
|---|---|---|---|---|
| | 1. | Sol Bayatı Şiraz | Feli = Mayə | I dərəcəli |

| | | | | |
|---|---|---|---|---|
| | 2. | Do - Mi b Hümayun | Mayə = Şüştər | II dərəcəli |
| **Re** | 3. | Sol Rast | Mayə = Vilayəti | II dərəcəli |
| | 4. | Lya Şur | Mayə = Şur Şahnaz | II dərəcəli |
| mayəli | 5. | Si Segah | Mayə = Zabul | II dərəcəli |
| | 6. | Si Segah | Feli = Manəndi müxalif | III dərəcəli |
| **ŞÜŞTƏR** | 7. | Re Çahargah | Feli = Manəndi müxalif | III dərəcəli |
| | 8. | Si b Bayatı Şiraz | Feli = Bayatı İsfahan | IV dərəcəli |
| | 9. | Mi Bayatı Şiraz | Feli = Mayə = Bayatı İsfahan | IV dərəcəli |

1. “Şüştər” muğamını təşkil edən şöbələrin demək olar ki, hamısı (“Mayə Şüştər” şöbəsindən başqa) bayatı şiraz məqamına əsaslanır. Buna görə də bayatı şuraz məqamı ilə şüştər məqamı I dərəcəli qohum məqamlardır. Re mayəli “Şüştər” muğamının “Feli” şöbəsini, sol mayəli “Bayatı Şiraz” muğamının “Mayə şöbəsi ilə eyniləşdirdikdə, eyni mayəli bu məqamlar arasında əlaqə mümkündür. (I dərəcəli qohum məqamlar)




2. Bildiyimiz kimi “Hümayun” muğamının tərkibinə “Şüştər” muğamının əsas şöbələrinin hamısı daxildir. Yəni do-mi bemol mayəli “Hümayun” muğamında re mayəli “Şüştər” muğamında olan “Mayə Şüştər”, “Feli”, “Tərkib” şöbələri qərar tutmuşlar. Ona görə də bu şöbələrdən hər biri bu iki məqam arasında körpü yarada bilər. Cədvəldə “Şüştər” muğamının “Mayə Şüştər” şöbəsi, “Hümayun” muğamının “Şüştər” şöbəsinə bərabər edilmişdir. (I dərəcəli qohum məqamlar)




3. Şüştər məqamından rast məqamına keçid etmək üçün də əsas vardır. “Rast” muğamının əsas şöbələrdən olan “Vilayəti”-nin məqam əsasını məhz şüştər məqamı təşkil edir. Ona görə də re mayəli şüştər məqamından sol mayəli rast məqamına modulyasiya etmək üçün “Vilayəti” şöbəsindən istifadə etmək lazımdır. (II dərəcəli qohum məqamlar)



4. "Şur" muğamının tərkibində "Şur-Şahnaz" şöbəsinin olması, bu şöbənin şüştər məqamına uyğun gəlməsi və bu şöbənin melodik xəttinin inkişafı zamanı şur məqamına istinad etməsi bizə əsas verir ki, şüştər məqamı ilə şur məqamının qohumluq dərəcəsini təyin edək. Konkret olaraq nümunə kimi re mayəli "Şüştər" muğamının "Mayə" şöbəsini, lya mayəli "Şur" muğamının "" şöbəsinə bərabər etmək lazımdır ki, bu iki məqam arasında II dərəcəli qohumluq münasibətləri yaransın. (II dərəcəli qohum məqamlar)



5. Ü.Hacıbəyli elmi irsinin layiqli davamçısı, Azərbaycan məqam nəzəriyyəsi sahəsində çoxsaylı elmi araşdırmaları olan professor M.C. İsmayılov eyni məqamın Şüştər, Hümayun və Zabul muğamlarınn əsasını təşkil etdiyini qeyd edir.[7 s113] Bu muğamların məqam əsasları eyni olsa da, kadans xüsusiyyətlri biri birindən fərqlənir. Eyni məqam əsası olan muğamların birindən digərinə keçid etmək çətinlik törətmir. Cədvəldə qeyd olunan növbəti modulyasiya məhz re mayəli şüştər məqamından si mayəli segah məqamınadır ki, burada da keçid "Mayə Şüştər" şöbəsinin "Mayə Zabul" şöbəsinə bərabər edilməsi ilə baş verir. (II dərəcəli qohum məqamlar)



6. Re mayəli şüştər məqamından si mayəli segah məqamına başqa bir variantla da keçid etmək mümkündür. "Şüştər" muğamının "Feli" şöbəsi ilə "Segah" muğamının "Manəndi müxalif" şöbələrinin məqam əsaslarının eyni olması, bizə bu iki məqam arasında keçid yaratması üçün əsas verir. (III dərəcəli qohum məqamlar)



7. Qeyd etdiyimiz kimi, Ü.Hacıbəyli Azərbaycan musiqisinin məqam nəzəriyyəsi haqında olan əsərində çahargah məqamında "Manəndi müxalif" şöbəsini də

qeyd etmişdir. Eyni məqam əsaslı şöbənin şüştər muğamında da olması ("Feli" şöbəsi) və bu şöbə ilə "Manəndi müxalif" şöbəsinin bərabərləşdirilməsi bu iki məqam arasında əlaqə yarada bilər. Adı çəkilən hər iki şöbənin mayə pərdəisindən xalis kvarta yuxarı məsafədə qərar tutması eyni re mayəli şüştər və çahargah məqamları arasında əlaqə yaratmış olur. (III dərəcəli qohum məqamlar)



8. "Bayatı İsfahan" şöbəsinin vasitəçiliyi ilə si bemol mayəli bayatı şiraz məqamına keçid etmək mümkündür. Lakin burada "Şüştər" muğamının "Feli" şöbəsini eyni məqam əsaslı "Bayatı İsfahan" şöbəsinə bərabır etmək lazımdır ki, sonra melodiya inkişaf zamanı kiçik tersiya yuxarı münasibətdə olan "Mayə Bayatı Şiraz" şöbəsində tamamlansın. (IV dərəcəli qohum məqamlar)



9. Re mayəli şüştər məqamının artıq qeyd etdiyimiz sol mayəlidən başqa daha iki müxtəlif mayəli bayatı şiraz məqamı ilə əlaqəsi vardır. Mi mayəli bayatı şiraz məqamı ilə əlaqə yaratmaq üçün "Şüştər" muğamının "Feli" şöbəsini "Mayə Bayatı Şiraz" şöbəsinə bərabər etmək lazımdır. Lakin burada inkişafı davam etdirərək kiçik tersiya aşağı münasibətdə bayatı şiraz məqamına əsaslanan "Bayatı İsfahan" şöbəsinə keçmək lazımdır. (IV dərəcəli qohum məqamlar )



Beləliklə, Şüştər məqamında cəmi səkkiz modulyasiya nəzərdə tutulur ki, bunlarda birinci dərəcəli qohum məqam kimi yalnız sol mayəli Bayati – Şiraz, 2-ci dərəcəli qohum məqam kimi do-mi bemol mayəli Hümayın, sol mayəli Rast, lya mayəli Şur və re mayəli Çahargah məqamları, üçüncü dərəcəli qohum məqam kimi isə si bemol mayeli Bayatı Şiraz və mi bemol mayəli Bayati – Şiraz məqamları çıxış edirlər.

**Ədəbiyyat**:

1. Fərhadova S.M. Az. muğam dəstgahlarının tarixi kökləri. Bakı-E.İ.F. 2018, 198 s
2. Hacıbəyov Ü.Ə Azəbaycan xalq musiqisinin əsasları. Bakı.Yazıçı 1985. 151 s
3. Hacıbəyov Ü.Ə Seçilmış əsərələri Bakı. Yazıçı. 1985 650 s
4. Hacıbəyov Ü.Ə Azərbaycan türk musiqisi haqqında "Na pubeje vostoka" jurnalı № 3. 1929
5. Həsənova C.İ Ü.Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları Bakı. Mars-print. 2009 320 s
6. Həsənova C.İ Azərbaycan musiqisinin məqamları Bakı.Elm və təhsil 2012. 231s
7. İsmayılov M.C Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi – metodik oçerklər. Bakı . Elm 1991. 117 s
8. İsmayılov M.C Azərbaycan xalq musiqisinin janrları Bakı. İşıq. 1984. 100 s
9. İsmayılov M.C Azərbaycan xalq məqamlarının qohumluq münasibəti haqqında АГК им. У. Гаджибекова. Ученые записки, серия XIII №9 Баку 1972 , 98 s
10. Nəcəfzadə A.İ, Məmmədəliyev V.M Muğam Bakı-Ekoprint, 2017. 160s
11. Zöhrabov R.F. Muğam Bakı, Az.Dövlət nəşriyyatı. 1991 218 s
12. Zöhrabov R.F "Çahargah" muğam dəstgahının nəzəri əsasları. Bakı. 2000, 130 s
13. Zöhrabov R.F "Rast" muğam dəstgahının nəzəri əsasları. Bakı. 2002, 146 s

**Имран Шихалиев**

**Из цикла «Родственные связи между ладами Азербайджана». Лад Шуштар**

**Резюме**

Взаимодействие шуштар с другими основными ладами, происходят на основе определенных принципов. В процессе чего учитываются все степени родства ладов. Однако автор приходит к выводу, что в сравнении с другими ладами шуштар обладает малой степенью интеграционности.

**Ключевые слова**: Шуштар, мугам, раздел, лад, модуляция, интеграция, взаимосвязь.

**Imran Shikhaliyev**

## From the cycle "Kinship ties between the modes of Azerbaijan"
## Mode Shushtar
## Summary

Interaction Shushtar with other major frets, occur on the basis of certain principles. In the process, which takes into account all the degrees of kinship frets. However, the author comes to the conclusion that in comparison with other modes Shushtar has a low degree of integration.

**Keywords**: Shuster, mugam, section, harmony, modulation, integration, mutualoswiaty.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.03.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.03.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 08.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**